# Ədəbiyyatımızda insan psixologiyasını didik-didik etmək bacarığı çatışmır

## *Cəlil Cavanşir: "Həyatı olduğu kimi təsvir etməyi sevirəm"*

**Cəlil Cavanşir 1984-cü ildə Oğuz rayonunun Xaçmaz kəndində dünyaya gəlib. 2004-cü ildə Gəncə Dövlət Universitetinin Xarici dillər fakültəsinin alman dili ixtisasına qəbul olunub və 2008-ci ildə ali təhsilini başa vurub. 2008-2010-cu illərdə ABU-da Pedaqogika və psixologiya üzrə magistr təhsili alıb. 2007-ci ildə Xanəmir Telmanoğlu, Oktay Hacımusalı və Bəxtiyar Elcanla birlikdə "Çölçülər Ədəbiyyat Mərkəzi"ni təsis edib. Erich Fried, Tomas Einzenberger, Bekir Karadeniz, Uğur Olgar kimi şairlərin bir çox əsərlərini Azərbaycan dilinə tərcümə edib. 2010-cu ildə II Nəsimi Ədəbiyyat müsabiqəsində şeir nominasiyasında II yer tutub. "Daha məni xatırlama" "Öz ruhunun işığında", "Underground sevgilər", "İtirilmiş əlyazma", "Dinlər, təriqətlər, peyğəmbərlər", "Qadın corabları", "P.S: Darıxıram" adlı kitabların müəllifidir.**

**- Cəlil, gənc yazarların kitabları çap olunur, ancaq nadir hallarda ədəbi ictimaiyyət tərəfindən qəbul edilir, haqqında yazılır. Bu münasibət, biganəlik bir yazar kimi səni bezdirmir ki?**

- Hazırkı şərtlər də, mühit də, mühitdəkilərin böyük əksəriyyəti də bezdiricidir. Son iki kitabım kifayət qədər səs-küylü oldu. Təəssüf ki, bu, çox qısa müddət çəkdi, reklamı sona qədər davam etdirə bilmədim. Buna maddi imkan olmadı, hövsələm çatmadı. Şəxsən mənim bir yazar kimi, marketinqlə, reklamla davamlı, ardıcıl məşğul olmaq imkanım yoxdur. İndiki halda populyarlıq boş qazan danqıltısından başqa bir şey deyil. Bu "sayrışmalar" hələ uzun müddət davam edəcək. Kim səbrlə yazıb-oxumağına davam edəcəksə, yaradıcılıqda israrlı olacaqsa, o da uğur qazanacaq. Son 10 ildə qazandığımız populyarlıq "sabun köpüyü"dür. Eyforiyaya qapılmaq lazım deyil. Özünü əvəzsiz istedad, böyük yazıçı, dahi şair hesab edənlərin yavaş-yavaş üfüqdə gözdən itecəyini görəcəyik.

**- Axı istedadsız adamların da ardıcıllığı, zəhmətkeşliyi olur, səncə, onlar da bir tərəfə çıxacaqlar?**

- Ümumiyyətlə, istedadın kriteriyası, göstəricisi nədir? Ədəbiyyatda istedad sözünün arxasında gizlənən kifayət qədər cahil, bivec, yaramaz var. Nə vaxtsa "Sən istedadlı oğlansan" sözünə aldanıb ədəbiyyata can atıblar, indi də bütün ölkə yığışıb bu adamlara bivecliyini başa sala bilmir. İstedad qığılcımdır. Yaradıcı adam bu qığılcımla böyük bir ocağı alovlandıra da bilər, bu qığılcımdan gözləri qamaşıb kor da ola bilər. Mən zəhmətə, çalışqanlığa, ardıcıllığa inanıram. İstedad yaradıcılığın təməli, özülüdür. Bu özülün üstündə bina ucaltmağı, özünü inkişaf etdirməyi bacarmırsansa, səndən sonra uzaqbaşı "filankəs istedadlı adam idi" sözü qalacaq. Sualının cavabına gəldikdə isə, istedadsız adam zəhmətkeş, ardıcıl olsa ədəbiyyat bir şey itirməyəcək. Tarixdə belə nümunələr çoxdur. Elə sovet dövrü Azərbaycan ədəbiyyatından bizə miras qalan cild-cild kitablara nəzər salaq. Arasında kifayət qədər istedadsız zəhmətkeşlərin yazdığı və artıq sənaye tullantısına çevrilmiş əsərlər var. İstedadsız adamlar sağlığında özünə yer edə, əsərlərini müdafiə edə, təbliğ edə bilər. Amma sağlam təməlin üzərində qurulmayan bina gec-tez uçub dağılacaq. Bunun tufanı var, küləyi, qarı, yağışı var...

**- Həm şeir, həm nəsr əsəri yazırsan. Hər iki janrda kitabların çap olunur. Ancaq ədəbi mühitdə (əksərən dünya ədəbiyyatında da belədir) müəllifi ya şair, ya yazıçı kimi qəbul edirlər. Sən özünü daha çox şair, yoxsa nasir kimi görürsən?**

- Yazmağa şeirlə başlamışam. İlk kitabım da şeir kitabı olub. Ədəbi mühitdəki fikirlər məni maraqlandırmır. Məni şair kimi də, nasir kimi də bütöv halda qəbul edənlər var. Şeirlərim daha çox populyarlıq qazanıb və bu insan kimi mənim ürəyimcədir.




Çünki romantik tərəfim hər zaman güclü olub. Bu baxımdan şeirlərim mənim üçün doğmadır, əzizdir. Amma özümü nəsrin yolunda görürəm.

**- Cəlil son nəsr kitabında erotik parçalar yer alsa da, son şeir kitabında daha çox ruhi məsələlər, ağrılar var, halbuki əvvəlki kitablarında tam əksinə idi.**

- Erotika mənim üçün sadəcə vasitədir və yeri gələndə istifadə edirəm. İlk romanımda heç öpüşmək səhnəsi də yox idi. Özün yaxşı bilirsən ki, şeir çox nadir hallarda erotikaya enir. Romanda isə erotikanın və çılpaqlığın dozasını müəyyənləşdirmək lazımdır. Mən son romanımda erotikanı sadəcə ironiya üçün, obrazları ələ salmaq üçün istifadə etmişəm. Erotikadan birdəfəlik imtina edə bilmərəm. Həyatı canlandırarkən, bütün boyalardan istifadə etməyin tərəfdarıyam. Bəziləri bunu təbliğat kimi, reklam kimi başa düşür. Əslində mən göstərirəm, canlandırıram, təsvir edirəm. Bütün bunlar həyatdan götürülmüş obrazlardır. Ümumiyyətlə açıq-saçıqlıqdan və iyrənclikdən qorxmuram. Həyatı olduğu kimi təsvir etməyi sevirəm.

**- Bir söz adamı kimi ədəbiyyatımızda nəyin arzusundasan və hesab edirsən ki o, çatmır?**

- Ədəbiyyatımızda normal və sağlam rəqabətin tərəfdarıyam və bizim ədəbiyyatımızda bu çatmır. Əvəzində bizim ədəbiyyatımızda saçyoldu, qrupbazlıq, dostbazlıq hökm sürür. Rəqabəti düşmənçilik kimi qavrayan bəzi nadan və cahil adamlar isə hər şeyi gözdən salır. Azərbaycan ədəbiyyatının ciddi naşirə, qonorara, maddi dəstəyə və təbliğata ehtiyacı var. Mən həqiqi ədəbiyyatla məşğul olan çağdaşlarımı əsil qəhrəman hesab edirəm. Bu qədər pis şərtlər altında israrla yazmaq, nikbin olmaq qəhrəmanlıqdır.

**- Cəlil, məncə, bütün dövrlərdə əsl ədəbiyyatın yanında olanlar çağdaşlarımızın qatlaşdığı əziyyətlərə qatlaşıblar.**

- Sözsüz ki, biz əsil ədəbiyyatın yanındayıq və çəkdiyimiz məhrumiyyətlərdən zövq alaraq yolumuza davam etməliyik. Bizi gözəl gələcək, gözəl günlər gözləməsə də, yolumuzdan dönməməliyik.

**- Milli ədəbiyyatımız dünya ədəbiyyatından hansı mövzularda geri qalır?**

- Bizim ədəbiyyatda insan psixologiyasını didik-didik eləmək bacarığı çatışmır. Hər şey səthi, ötəri və aqrardır. Bəzən cəfəngiyyatdan o tərəfə keçməyən mətnlər mükafat alır, təbliğ olunur və mən oturub hirsimdən, hikkəmdən dalbadal siqaret çəkirəm. Təhlil eləsən görərsən ki, bizim bəh-bəhlə oxuyub tərifləndiyimiz mətnlər ağlaşmadan, nisgildən o tərəfə keçmir. Biz hələ də filankəs "kitabdan gəlmə"dir, filankəs "həyatdan gəlmə"dir məsələlərini müzakirə edirik. Yazılan əsərlərdə aydın təfəkkür problemi var. Yazıçı böyük düşünmək üçün çox oxumalı, çox gəzməli, çox hadisələrin içində olmalıdır. Məsələn, Qarabağ hadisələrini, Meydan hərəkatını, rus tanklarının Bakıya girməsini ədəbiyyata gətirməyi tam bacarmamışıq. Milan Kundera az qala bütün romanlarında "Praqa baharı"nı xatırlayır. Haynrix Böll müharibəni və müharibədən sonrakı çalxantıları yüksək peşəkarlıqla yazıb. Herta Müller müharibədən sonrakı hadisələrə yazıçı münasibəti ilə alman xalqına haqq qazandırmağı bacarır. Eko bir roman yazır və avropalılar tarixinə yenidən nəzər salmağa məcbur olur. Mən son romanımda ölkədəki siyasi-ictimai proseslərin fərdlərin həyatına hansı formada təsir etdiyini yazmağa çalışdım. Yenicə tamamladığım povestdə ötən əsrin 90-cı illərində baş verən hadisələrin, müharibənin, formasiya dəyişikliyinin, hakimiyyət çevrilişlərinin yeniyetmələrə və uşaqlara necə təsir etməsini yazmağa çalışmışam. Bacardıqca ölkəmdə və dünyada baş verən hadisələri izləyirəm. Dünyada gedən prosesləri dərin həssaslıqla izləmədən dünyayla ayaqlaşmaq çətindir. Ən vacib məqam isə ədəbiyyatın mərkəzində dayanan insandır. Çünki dünyanın harasında olursa olsun İNSAN maraqlıdır.

**- Cəlil, xeyli yazılar yazırsan, yeni kitablara ilk reaksiya verənlərdənsən. Ümumiyyətlə, öz münasibətini sərgiləmək ehtiyacı səndə nədən yaranır?**

- Yazdığım yazılara görə aldığım qonorar mənim və iki övladımın yaşaması üçün yeganə vasitədir. Müxtəlif yazılar yazmağa məcburam. Yalandan deyə bilmərəm ki, yazdıqlarımın hamısı ürəyimcədir. Yeni kitablara reaksiya verməyimə gəlincə, bunu sırf təbliğat üçün edirəm. İstəyirəm ki, yazılan kitablar diqqətdən kənardan qalmasın. Yazdığım yazıları sırf münasibətimi sərgiləmək üçün yazmıram. Əsas məqsədim övladlarımın və özümün zəruri, minimum ehtiyaclarını təmin etməkdir. Yoxsa hər şeyə publisistik münasibət sərgiləmək könlümcə deyil. İmkanım olsa, sırf bədii yaradıcılıqla məşğul olaram. Publisistikaya mütəmadi müraciət etməyimin əsas səbəbi madiyyatdır. Çünki başqa heç bir qazancım yoxdur. Qonorar üçün yazmasam sözün həqiqi mənasında övladlarım acından ölər. Bu, bəzilərinə şişirdilmiş görünə bilər. Amma faktdır.

**- Onda belə çıxır ki, o yazıların əksərinin altına mənən imza atmırsan, bu, sadəcə, maddi məcburiyyətdir?**

- Məcburiyyətdən və məhrumiyyətdən yazsam da, bütün yazılarımın altındakı imzamın arxasındayam.

**- Yeri gəlmişkən, hər adam ədəbi imzaya çevrilə bilmir. Hətta gündə çap olunsa belə. Səncə, bunun əsas səbəbi nədir?**

- Ədəbi imzaya çevrilmək üçün davamlılıq, prinsipiallıq, səbir və inadkarlıq lazımdır. Davamlı və sistemli olmayan yazarın ədəbi imzaya çevrilməsi mümkün deyil. Müəyyən vasitələrlə çap olunmaq mümkündür: bəziləri buna gözəllikləri, incəlikləri və can alan baxışları, bəziləri dostları vasitəsilə nail olur, bəzilərinin isə sadəcə bəxti gətirir. Ədəbi imzaya çevrilmək üçün qalıcı və ədəbiyyat kriteriyalarına cavab verən mətn yazmaq lazımdır.

**Fərid Hüseyn**